Adımız məfkurəmizdir
20 iyun – 3 iyul 2023-cü il
Türküstan
www.turkustan.az

Qocayeva Rəna Fərhad qızı
Avey Dövlət Tarix-Mədəniyyət Qoruğunun elmi işçisi



# Azərbaycanın qədim yaşayış məskənləri

## Damcılı Mağara düşərgəsi

(əvvəli ötən sayımızda)

***Azərbaycan ərazisində tapılan qədim insan düşərgələrində aşkar olunmuş maddi mədəniyyət qalıqları burada ibtidai insanların mağara həyatından, əmək alətləri hazırlanmasından, ovçuluq təsərrüfatından, ilkin odla tanışlığından, ibtidai tikili yerlərindən, qaya rəsmlərindən və həmin bölgənin qədim tarixindən xəbər verir.***

Qədim tarixə malik olan rayonumuzun digər tarixi abidəsi isə özündə tarixin bir çox illərinə şahidlik edən və sirrlərini özündə ehtiva edən Damcılı mağara düşərgəsidir. Damcılı mağarası Qazax rayonunun Daşsalahlı kəndi yaxınlığındakı Avey dağının ətəyində yerləşir. Mağaranın yerləşdiyi ərazidə ilkin arxeoloji tədqiqatlar ilk dəfə 1953-cü ildə aparılmışdır. 1956-cı ildən isə burada üç il ərzində arxeoloq M.M.Hüseynovun rəhbərliyi ilə əsaslı arxeoloji ekspedisiya həyata keçirilmışdır. Həmin illərdə təşkil olunan ekspedisiya zamanı Avey dağında daş dövrünə aid qədim insanlara məxsus 30-a yaxın mağara aşkar olunmuşdur. Tədqiqatların nəticəsi bunu deməyə əsas verir ki, İbtidai insanlar bu təbii mağaralardan yaşayış yeri kimi istifadə ediblər.

Avey dağında aşkar olunan daş dövrü insan məskənlərindən ən böyüyü və eləcə də bir çox turist və gənc tədqiqatçıların marağına səbəb olanı Damcılı mağara düşərgəsi hesab olunur. Yarımdairəvi formada olan mağaranın hündürlüyü 4 metr, ümumi sahəsi 360 kvadrat metrdir. Aparılmış tədqiqat zamanı Damcılı mağarasında ibtidai insanların hazırladıqları müxtəlif çeşidli daş alətlər və ov heyvanlarının yarı yanmış sümüklərinin qalıqları aşkar edilmişdir. Alimlər mağaradan tapılan bu daş alətləri öz forma və hazırlanma texnikasına görə orta paleolit - Mustye dövrünə, yuxarı paleolitə və neolitə aid edirlər. Bu mülahizələr həmin ərazidə bir neçə minillik ərzində davamlı yaşayış olduğunu deməyə əsas verir.

***Burada yaşayan insanlar minilliklərlə öz bacanq və ustalıqlarını təkmilləşdirərək ibtidai vəziyyətdən müəyyən inkişaf mərhələsinə yüksələ bilmişlər. Alimlərə görə, məhz Damcılı mağarasında aşkar olunan arxeoloji material əsasında həmin inkişaf prosesinin mərhələlərini ardıcıl şəkildə izləmək mümkündür. Mağaranın yerləşdiyi ərazi bir çox qədim tarixə malik və unikal əhəmiyyətli obyektlərlə məşhurdur. Damcılı mağarasında qeydə alınan belə mühüm elementlərdən biri də Damcılı bulağıdır: dar qaya çatlarının arasından saf və duru, buz kimi soyuq su damcıdamcı tökülür, aşağıdakı ovuqda yığılıb bulaq olur. Buna görə də bura "Damcılı bulağı" adlandırılıb. Bu bulaq hazırda yerli camaatın və qonaqların istirahət yeridir.***

Bundan başqa, Damcılı mağarasının yerləşdiyi Avey dağı müxtəlif tarixi dövrlərə təsadüf edən maddi-mədəniyyət, arxeologiya və memarlıq abidələri ilə zəngindir. Bəhs edilən ərazidə 8 məbəd, 2 qədim yaşayış yeri, ilk orta əsrlərə aid qəbiristanlıq, müdafiə divarları və bürcləri olan 2 qala qalığı, 30-a qədər mağara, yel dəyirmanı, müxtəlif quruluşlu su anbarları qeydə alınıb. Burada həmçinin şəhər mədəniyyətinə xas olan bitki yağı istehsalı üçün 1,4 metr diametrlik sıxıcı daş çarx tapılıb. Bütün bunlar nəzərə alınaraq Avey dağı, Göyəzən dağı və Əskipara kəndinin əraziləri "Avey dövlət tarix-mədəniyyət qoruğu" elan olunmuşdur.

Damcılı mağara düşərgəsində hal-hazırki dövrmüzdə də bir çox arxeoloji tədqiqatlar aparılmışdır. Onlardan ən əsası 2015-ci ilin yayında Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Yaponiyanın Tokio Universitetinin daş dövrü mütəxəssisi professor Yoşihiro Nişiakinin rəhbərliyi ilə böyük bir heyət Avey dağı ətəklərində kəşfiyyat xarakterli axtarış aparmaq üçün qoruq ərazisinə dəvət olunmuşdur. 1 həftəlik axtarışdan sonra Avey dağında, Damcılı mağarası və mağara düşərgəsinin ətrafında dünya əhəmiyyətli arxeoloji irsi kompleks tədqiq etmək üçün 3 tərəfli beynəlxalq memorandum imzalanmışdır. Bu memorandum Mədəniyyət Nazirliyi tərəfindən "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğu, AMEA tərəfindən Arxeologiya və Etnoqrafiya İnstitutu, Yaponiya tərəfindən Yaponiyanın Tokio Universiteti Universitet Muzeyi arasında bağlanmışdır.

Memoranduma əsasən ilk arxeoloji qazıntılara 2016-cı ilin avqust ayının 8-dən 24-nə kimi "Avey" DTMQ-nun ərazisində yerləşən dünya əhəmiyyətli Damcılı mağara düşərgəsində başlanmışdır. İlkin tədqiqatlar zamanı kəşfiyyat xarakterli 10-a yaxın müxtəlif istiqamətlərdə qazıntı işləri aparılmışdır. Yaponiyalı və yerli arxeoloqların birgə işlədiyi ərazinin 4 m dərinliyində qazıntı işləri aparılarkən orta əsrlərə, tunc dövrünün sonuna aid, daha dərində isə neolit dövrü qalıqları, ocaq yerləri, fauna nümunələri (sümüklər), təxminən yarım metr dərində lal təbəqədən aşağıda isə orta paleolit dövrünün son mərhələsini əks etdirən qəlpə, nüvə tullantıları və alət nümunələri əldə olunmuşdur. Damcılıda tapılan maddi-mədəniyyət nümunələrinin dövrlərinin müəyyənləşməsi üçün Yaponiya laboratoriyalarına göndərilməsi nəzərdə tutulmuşdur.

2017-ci il iyulun 17-dən 30-a kimi 2-ci dəfə beynəlxalq ekspedisiya qoruq ərazisində qazıntılar aparmışdır. Həmin il sadəcə bir quyu üzərində işlənərək 5 metrədək dərinlikdə aparılan qazıntı işləri zamanı torpaq horizontal təbəqəyə bölünmüş, müxtəlif dövrlərə aid nümunələr tapılmışdır.

Üçtərəfli beynəlxalq memoranduma əsasən Yaponiyanın Tokio Universitetinin əməkdaşları 2018-ci ilin iyulun 12-dən etibarən artıq 3-cü dəfə Damcılı mağara düşərgəsində qazıntı işlərini davam etdiriblər.



Qazıntıların aparılmasında əsas məqsəd Daş dövrünə aid nümunələri əldə etməklə düşərgədə qədim insan məskəninin olduğunu, həmçinin burada yaşayan insanların gəlmə deyil, yerli sakinlər olduqlarını öyrənmək, eləcə də Neolit dövrü ilə Mezolit dövrü arasında olan əlaqəni müəyyənləşdirməkdir. Arxeoloji qazıntılar Tokio Universitetinin professoru Yoşihiro Nişiakinin rəhbərliyi ilə aparılmışdır. Həmçinin, həmin universitetin üzvlərindən - Çie Akaşi, doktorant Fumika İkeyama, Qədim Şərq Muzeyinin arxeoloqu Kazuya Şimoqama, Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları - Mənsur Mənsurov, Yaqub Məmmədov, Ülviyyə Heydərova və Əjdər Babayev iştirak ediblər.

***Son olaraq onu qeyd etmək istəyirəm ki, Qazax rayonu istər mədəniyyəti ilə, istər incəsənəti ilə, istərsə də ulu qədim tarixi və tarixi abidələri ilə Azərbaycanın mədəni irsinin bir parçası olaraq ona daim öz töhfələrini vermişdir. Biz sıravi vətəndaşların isə əsas vəzifəsi bu tarixi sevmək, öyrənmək ən əsası isə gələcək nəsillərimiz üçün qoruyub saxlamaqdır. Tarix həmişə gizli, sirli bir xəzinədir. Bu xəzinənin qapılarını açmaq və elmə yeni töhfələr vermək isə tədqiqatçıların borcudur. Bu xəzinənin dəyərini bilib onun açılmasında tədqiqatçılara öz yardımını əsirgəməmək isə biz Azərbaycanlıların ən ümdə vəzifəsidir.***

Oxu, oxut, abunə ol!